**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A. A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

***Əlyazması hüququnda***

**SEVDA FÜZULİ qızı ABDULLAYEVA**

# AZƏRBAYCAN XI-XIV ƏSRLƏRDƏ (“İRANIN KEMBRİC TARİXİ” ƏSASINDA)

**İxtisas: 5503.02 - Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2017**

Dissertasiya AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
AMEA-nın müxbir üzvü **Nərgiz Çingiz qızı**
**t.ü.e.d.,professor Axundova**

**Rəsmi opponentlər:**
**Tarix üzrə elmlər doktoru, prof. Ş.F.Fərzəliyev**
**Tarix üzrə fəlsəfə doktoru,dos. R.A.Muğanlınski**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedoqoji Universitetinin "Azərbaycan tarixi"kafedrası**

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01-"Ümumi tarix", 5503.02-"Vətən tarixi", 5507.01-"Beynəlxalq münasibətlər tarixi" və 5509.01-"Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "_____" ________ 2017 ci il tarixli iclasında, saat_____-da keçiriləcəkdir.

Ünvan: AZ 1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr.,115

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitunun Elmi Arxivində tanış olmaq olar

Avtoreferat "___" __________ 2017 ci il tarixdə göndərilmişdir.

**D.01.161 Dissertasiya Şurasının**
**elmi katibi tarix üzrə fəlsəfə doktoru C.Ə.Bəhrəmov**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan tarixinin orta əsrlər dövrü tarixi, o cümlədən XI-XIV əsrlər tarixinin hərtərəfli tədqiqi müasir milli tarixşünaslıq elmi qarşısında duran ən aktual məsələlərdən biridir. Bu dövrün siyasi, sosial-iqtisadi, hərb və mədəniyyət tarixi problemlərinin tədqiqi elmi –siyasi və ideoloji nöqteyi nəzərdən mühüm əhəmiyyət kəsb edir. Azərbaycan tarixinə intibah dövrü kimi daxil olan XI-XIV əsrlər tarixi məsələlərinin tədqiqinin fərqli cəhəti odur ki, bu dövrün tarixini əks etdirən mənbələr əsasən ərəb və fars dillərində mövcuddur. Doğrudur, bu dövr tarixi mənbələri XIX –XX əsrlərdə İran, Türkiyə, Böyük Britaniya,

Sovet ,o cümlədən Azərbaycan Sovet tarixşunaslığında tədqiq olunsa da bu məsələlər qərb mənbələri əsasında kompleks şəkildə öyrənilməmişdir. Qeyd etmək lazımdır ki, indiyədək XI-XIV əsrlər Azərbaycan tarixinin öyrənilməsi üçün milli tarixşünaslıqda ərəb və fars dilli mənbələrə üstünlük verilmişdir. Lakin bu da məlumdur ki,Qərbi Avropa ölkələri tarixşünaslığında ilk növbədə Böyük Britaniya tarixşünaslığında bu məsələlərin tədqiqi öz əksini tapmışdır. Bu baxımdan tədqiqata cəlb olunan "İranın Kembric tarixi" adlı çoxcildli əsər maraq doğurur. Təqdim olunan dissertasiya işi bu çoxcildlik əsasında XI-XIV əsrlər Azərbaycan tarixinə dair məsələləri araşdırmağa xidmət edir. Azərbaycan tarixinin "İran tarixi" adı altında təqdim olunması "avromərkəzçilik" xəttinin həyata keçirə bildiyi təhriflərdən biri kimi diqqəti cəlb edir. Məqsədəuyğun fəaliyyət nəticəsində İngiltərə tarix elmi İran tarixini Şərq xalqlarına "fars tarixi" kimi təqdim edə bilmişdir. "İranın Kembric tarixi" çoxcildliyində də tarix məsələlərinə bu mövqedən yanaşılır, "İran" ifadəsi "Fars", "Fars ölkəsi" və yaxud "farsi" anlayışı altında təqdim olunur. Bu isə İrana "fars tarixi" baxımından yanaşmaq deməkdir. Hal-hazırda "İran" bir ölkə, dövlət adıdır. "İran" və yaxud "iranilik" isə "farsi" mənasını daşımır. "İran" yalnız farsı təmsil etmir. "İran" ifadəsi Sasanilər dövründə deyil, Səlcuqlar zamanından etibarən işlənməyə başlanmışdır. Qacarlar dövründə (1796-1925) bu ölkənin rəsmi adı "Məmalek-e Məhruse-ye İran" ("İran daxilindəki ölkələr") olmuşdur. Bu mənada "İran" ifadəsi coğrafiyanın adı kimi təqdim edilir.

Azərbaycan xalqının XI-XIV əsrlər tarixinin müəyyən hissələri bu əsərin V və VI cildlərində öz əksini tapmışdır ."İranın Kembric tarixi" əsərində bu ərazilərin yerili əhalisinin etnik mənsubiyyəti haqqında məsələlərə toxunulmamış, hətta orta əsr Azərbaycan dövlətləri yalnış olaraq "İran dövlətləri" kimi təqdim edilmişdir.

İran və Azərbaycan ərazilərinin tarixinin təhrif olunması məsələsi Pəhləvilərin 1925 ci ildə iqtidara gəlişindən sonra Qərb dövlətlərinin o cümlədən Böyük Britaniya dövlətinin bilavasitə müdaxiləsi ilə baş verdi.

Qeyd etmək lazımdır ki, "İranın Kembric tarixi" tərtib olunanda məhz İran tarixçilərinin fars şovinizmi ruhunda yazılmış əsərlərinə istinad olunmuş və həmin tarixçilərin bir çoxu bu çoxcildliyin tərtibində iştirak etmişlər. Bu çoxcildlik İngiltərə və İran müəlliflərinin əməkdaşlığı sayəsində yaranmış bir topludur. Toplunun V və VI cildlərində medievist müəlliflərin İran tarixi ilə bağlı olan araşdırmaları təqdim olunur. Həmin müəlliflər "avroprmərkəzçilik", "fars millətçiliyi" xəttini əsas tutmuş, ciddi təhriflərə yol vermiş, xüsusilə Azərbaycan tarixinə münasibətdə qeyri-obyektiv mövqedən çıxış etmişlər. Buna görə də həmin çoxcildliyin V və VI cildlərinin Azərbaycan tarix elmində tədqiqata cəlb olunması çox aktualdır. Çünki Azərbaycan tarixinin, o cümlədən milli dövlətçilik tarixinin mühüm inkişaf mərhələsi məhz bu dövrə bağlıdır. XI-XIV əsrlərdə dövrdə Azərbaycan ərazilərində Şirvanşahlar (861-1538), Şəddadilər (971-1067), Rəvvadilər (981-1054), Atabəylər-Eldənizlər (1136-1225), Hülakular (1256-1357), Cəlairilər (1358-1410) dövlətləri mövcud olmuş, onlar beynəlxalq aləmdə baş vermiş proses və hadisələrə ciddi təsir göstərmişlər. Böyük Səlcuqlar imperiyasının yaranması da bu dövrə təsadüf edir. Azərbaycan əraziləri Səlcuqlar imperiyasının mərkəzi olmuş, Azərbaycan atabəyləri bu imperiyanın siyasi həyatında mühüm rol oynamış, sonralar bu ərazilərdə yaranmış dövlətlər onların varisləri kimi meydana çıxmışlar. "İranın Kembric tarixi"ndə Azərbaycan tarixi ilə bağlı olan məsələlərə yanaşma tərzinə aydınlıq gətirilməsi Vətən tarixşünaslığı üçün aktual olan elmi məsələlərdəndir. "Kembric tarixi" irançılıq mövqeyindən yazılsa da, Azərbaycanın orta əsrləri ilə bağlı olan bu cildlərdə dəyərli fikirlər çoxdur. Həmin fikirlərin elmi ictimaiyyətə, geniş oxucu kütləsinə təqdim olunması vacib məsələlərdən hesab edilir. Fikrimizcə bu tədqiqat işinin Azərbaycan ictimaiyyətinə təqdim olunması Vətən tarixşünaslığının inkişafına yeni təkan verə bilər.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya işi Azərbaycan tarixinin XI- XIV əsrlərlə bağlı olan dövrünü əhatə edir. Həmin dövrdə Azərbaycan dövlətlərinin tarixi "İranın Kembric tarixi"nin V və VI cildlərinə əsasən işlənilmiş, əsər müəlliflərinin qərəzli və yanlış müddəaları tənqidi təhlilə məruz qalmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** XI-XIV əsrlərin Azərbaycan tarixinin "İranın Kembric tarixi" əsəri əsasında tədqiqi dünya tarix elminin

Azərbaycan tarixinə münasibətini öyrənmək baxımından da əhəmiyyətlidir. Dünya tarixinin təşəkkülündə öz rolunu oynayan Azərbaycan ərazilərində baş vermiş tarixi proses və hadisələrin təqdimatı tərzi Vətən tarixşünaslığı üçün öyrənilməsi zəruri olan məsələlərdəndir. Azərbaycan xalqı siyasi müstəqilliyini ikinci dəfə bərpa edənədək "avropamərkəzçilik" Vətən tarix elmində də qəbul edilirdi. Bu isə Azərbaycan tarixinə yanaşmada qeyri-obyektivlik, ciddi qüsurların yaranması üçün şərait yaradırdı. Həmin dövrdə Azərbaycanın rəsmi tarix elmi bu yanaşma tərzinə müqavimət göstərə bilmirdi. 1991-ci ildən sonra Vətən tarixçiləri qarşısında duran əsas məsələlərdən biri də Qərbi Avropa tarix elminin Azərbaycanla bağlı olan əsərlərinə yenidən, tənqidi surətdə baxılması aktuallaşmışdır.

Məlumdur ki, XIX əsrdən etibarən İngiltərə müstəmləkəçiliyi tarix elminə də "köçürüldu". XIX əsrin II yarısından həyata keçirilən "avropa-mərkəzçilik" tezliklə öz "bəhrələrini" verdi. "İranın Kembric tarixi"nin V və VI cildlərində də bu təmayül özünü birmənalı şəkildə göstərir. Toplunun V cildində[1] 7, VI cildində[2] isə 8 elmi məqalə təqdim edilir. Bu məqalələrin müəllifləri həmin dövrün tanınmış iranşünasları olmuşlar. Məqalələrdə XI-XIV əsrlərdə Azərbaycan dövlətlərinin siyasi, iqtisadi və mədəni həyatına dair məlumatlar da təqdim olunur. Lakin bu məlumatlar "İran" adı altında təqdim edilir. Azərbaycan mədəniyyəti isə "fars mədəniy-yəti" kimi qələmə verilir. Mənfi cəhətlərinə baxmayaraq, bu materiallar XI-XIV əsrlərin Azərbaycan dövlətlərinin Qərbi Avropa tarix elmində işıqlandırılması səciyyəsi haqqında ətraflı təsəvvür yaradır. Biz İngiltərə tarix elmində müstəsna mövqeyi olan E.Bosvortun tədqiqat əsərlərindən də yararlandıq. Onun Şəddadi və Rəvvadi dövlətləri ilə bağlı olan tədqiqat əsərləri mahiyyətcə "İranın Kembric tarixi"ndəki mövqedən fərqlənmir[3]. Lakin həmin əsərlərdə onun dəyərli fikirləri də öz əksini tapmışdır. Şədaddi

[1] The Cambridge history of İran. In eight volumes. Volume 5. The Saljuq and mongol periods. edited by J.A.Boyle. Cambridge at the university press, 1968.

[2] The Cambridge history of İran. In eight volumes. Volume 6. The Timurid and Safavid periods. edited by Peter Jackson. Cambridge university press, 1986.

[3] Bosworth C.E. Shaddadids/The Encyclopeaedia of Islam/ New edition: in 12 volumes. Vol. IX / Ed. By C.E.Bosworth, E. Van Donzel, W.Heinrichs, G. Lecomte. Leiden: Brill, 1977; Bosworth C.E. The Islamic Dynastic, a chronological and genealogical handbook. Edinburgh: Edinburgh University Press, 1967; Bosworth C.E. Rawwadids / The Encyclopaedia of Islam. New Edition: in 12 volumes. Vol. VIII / Ed. By. C.E.Bosworth, E. van Donzel, W.P.Heinrichs, G.Lecomte. Leiden: E.J.Brill, 1995; Bosworth C.E. Azerbaijan IV. Islamic Hisrory to 1941 / Encyclopaedia Iranica: in 45 volumes. / Ed. By Yarshater E. Vol. III, fasc. 2-3. London, N-Y: Routledge&Kegan Paul, 1987.

dövləti ilə bağlı olan digər ingilisdilli tədqiqat əsəri[1] qeyd olunmalıdır. Bu cür əsərlər az deyildir. Diqqətimizi cəlb edən "Monqolların tarixi" əsəri[2] H.Howortha məxsusdur. O, monqol-tatar yürüşləri zamanı baş vermiş ictimai-siyasi proses və hadisələrə toxunmuşdur. Bu əsərdə Azərbaycanla bağlı olan məlumatlar da "avropamərkəzçili"yə uyğun surətdə təqdim edilir. Orta əsrlər üzrə digər məşhur tədqiqatçı V.Minorski olmuşdur. Onun tədqiqat əsərləri ingilisdilli digər müəlliflərin əsərlərində xüsusi əhəmiyyət kəsb edir. [3]. Xüsusi olaraq qeyd etmək lazımdır ki, dissertasiyanın yazılışı zamanı tarixi elmində müxtəlif illərdə nəşr olunmuş elmi ədəbiyyatları da tədqiqata cəlb edilmişdir. Ilk növbədə buraya 1958- 1963 cü illərdə nəşr edilmiş üç cildlik "Azərbaycan tarixi" nin I cildini, 1993 cü ildə nəşr edilmiş bir cildlik "Azərbaycan tarixi" və 1998-2003 cü illərdə çap olunmuş "Azərbaycan tarixi" əsərinin II və III cildlərini göstərmək lazımdır. Bundan başa qeyd olunmalıdır ki, Akademik Z.M.Bünyadovun əsərləri [4] və AMEA –nın müxbir üzvü Y.M.Mahmudovun[5]əsərlərində XI-XIV əsrlərin hadisələri aydın şəkildə təsvir olunur. Həmin dövr hadisələrinə S. B.Aşurbəylinin əsərlərində[6] də toxunulur.

Əkbər N.Nəcəfin Səlcuqlar dövrünə aid olan tədqiqat əsəri diqqətəlayiqdir. XI-XIV əsrlərin Azərbaycan mədəniyyətini izləmək üçün X.Qasımovun, N.A.Əliyevanın monoqrafiyaları da böyük əhəmiyyət kəsb edir. Dövrün ictimai-siyasi prosesləri, ticarət əlaqələri Y.Gözəlovanın monoqrafiyalarında özünün geniş əksini tapmışdır. Səlcuqlardan Osmanlı dövlətinə, imperiyasına qədərki proses və hadisələr Ş.Mustafayevin

---

[1] Peacock A. Shaddadids // URL: http://www.iranicaonline.org/articles/shaddadids.

[2] Howorth H. History of the Mongols, Part III. The Mongols of Persia. London: 1888.

[3] Minorski B. Studies in Caucasian history. London, 1953, «Cambridge Oriental series», №6; Minorsky V. Caucasica IV // Bulletin of the School of Oriental and African Studies, University of London. Vol. XV, №3, 1953, pp.504-529.

[4]Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər) Bakı: Elm, 1984; Буниятов З.М. Государство Хорезмшахов-Ануштегинидов (1097-1231). М.: Наука, 1986; Буниятов З.М. Видные деятели Азербайджана в сочинение Ибн ал-Фувати (статья вторая) // Изв. АН Азерб. ССР, СИФП, 1982, №1, с.3-8; Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана (статья четвертая) // Изв. АН Азерб. ССР, СИФП, 1980, №3, с.62-68.

[5] Mahmudov Y.M. Azərbaycan tarixi.İntibah dövrü. Bakı: Altay dünyası,1996; Mahmudov Y.M. " Kitabi Dədə Qorqud" tarixi mənbədir. Dədə Qorqud -1300. Bakı ABU nəşriyyatı, 1999. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri. Bakı: "Azərbaycan diplomatiysası" jurnalının nəşri 1996.

[6]Aşurbəyli Sara.Şirvanşahlar dövləti . VI-XVI əsrlər.Bakı : Avrasiya press 2006; Aşurbəyli Sara Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü. Bakı:Avrasiya Press 2006

monoqrafiyasında təqdim edilir. S.M.Onullahinin tədqiqat əsərləri bu dövrün öyrənilməsi üçün çox qiymətlidir. XI-XIV əsrlərin ictimai-iqtisadi münasibətləri A.Əlizadənin, V.Piriyevin əsərlərində geniş təhlil olunmuşdur. M.Şəriflinin IX əsrin ikinci yarısında-XI əsrlərdə Azərbaycan dövlətlərinin tarixinə həsr olunmuş monoqrafiyası da xüsusilə qeyd edilməlidir. Biz bu və digər əsərlərdən maksimum dərəcədə yararlanmış, Türkiyə Cümhuriyyətində nəşr olunmuş elmi ədəbiyyatdan da istifadə etmişik. İsmayıl Akanın[1], A.İnanın, A.Kafkasyalının, M.A.Köymenin, M.F.Köprülünün, F.Sümerin, Erdoğan Merçilin tədqiqat əsərlərində Azərbaycanın XI-XIV əsr tarixi ilə bağlı olan xeyli material vardır. Biz rus dilində, fars dilində nəşr olunmuş bəzi əsərlərdən də bəhrələnmişik.

**Tədqiqatın mənbə bazası.** Problemlə bağlı olan bir sıra yazılı mənbələrdən yetərincə yararlanmağa çalışmışıq. Bu mənbələrdən "İranın Kembric tarixi"nin müəllifləri də bu mənbələrdən istifadə etmişlər. Tarixi proses və hadisələrə nəzər saldıqda belə bir məntiqi nəticəyə gəlmişik ki, dünyanın tarixi vaxtaşırı olaraq yenidən yazılmalıdır. Yeni nəzəriyyələrin, konsepsiyaların meydana çıxması bunu doğuran səbəblər sırasındadır. Hal-hazırda yazılı mənbələrə, elmi ədəbiyyata yenidən, obyektiv maraqlarımız baxımından yanaşmalıyıq. Əbubəkr əl-Qutbi Əhərinin "Tarix-e Şeyx Uveys"[2], Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülkün "Siyasətnamə"[3], Həmdullah Mustofi Qəzvinin "Tarix-e qozide"[4], Xacə Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri"[5],

---

1 Aka İsmayıl. Timur ve devleti. Ankara: Türk Tarih Kurumu, 2014; İnan A. "Türk Dastanlarına Genel Bir Baklş", Makeleler ve İncelemeler. c.1. Ankara: Türk Tarix kurumu, 1968, s.189-206; Kafkasyalı Ali. İran Coğrafyasında Türkler. İstanbul: Cağaloğlu, 2011; Köymen Mehmet Altay. Selçuklu devri Türk tarihi. 5.Baskı. Ankara: Türk Tarih Kurumu, 2013; Köprülü Mehmed Fuad. "Anadolu Selçukları Tarihinin Yerli Kaynakları", TTK, Belleten, c.VII, Ankara: 1943, s.456-483; Sümər F. Oğuzlar: Tarixləri, boy təşkilatları, dastanları, Türkiyə türkcəsindən tərcümə edəni Ramiz Əsgər. Bakı, Yazıçı, 1992; Sümer F. Büyük Selçuklular. Tarih / İslam Ansiklopedisi. 44 ciltte. XXXVI cilt / Başkan: Dr. Akif Aydln. İstanbul: Türkiye Diyanet Vakfı Yayın Matbaacılık ve Ticaret İşletmesi, 2009, s.365-371, s.368-370; Merçil Erdoğan. Selçuklu devletleri tarihi. Siyaset, Teşkilat ve Kültür. Ankara: Türk Tarih Kurumu Basımevi, 1995, 598 s. +22 seh.Haritalar ve Resimler.

2 Əbu Bəkr əl-Qutbi əl-Əhəri. Tarix-e Şeyx Uveys. Fars dilindən tərcümə və müqəddimə, şərhlər və qeydlər M.D.Kazımov və V.Z.Piriyev tərəfindən yerinə yetirilmişdir. Bakı: Elm,1984;

3 Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı: Elm, 1984.

4 Həmdullah Mustofi Qəzvini. Zeyl-e Tarix-e qozide. Giriş, tərcümə, şərhlər və göstəricilər M.D.Kazımovun və V.Z.Piriyevindir. Bakı: Elm, 1986;

5 Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. II nəşri. Farscadan Azərbaycan dilinə tərcümə, müqəddimə və şərhi Rəhim Sultanovundur. Bakı: Elm, 1989.

“Övsafül-əşraf”[1], “Si fəsl (“Otuz fəsil”)[2],“Təzkirə: “Ağazü əncam”, “Məbdə və məad”[3] əsərləri, İbn əl-Əsirin “əl-Kamil fit tarix”[4], Məhəmmədəli Tərbiyətin “Danişməndani-Azərbaycan”[5], Nizaməddin Şaminin “Zəfərnamə”[6], Zeynəddin Bin Həmdullah Qəzvinin” Zeyl-e tarix-e qozide”[7], Reşidüddin Fazlullahın “Camiut-Tevarih” (İlhanlılar Kısmı.; Türkiyə türkcəsində)”[8], Sədr əd-Din Əli əl-Hüseynin “Əxbar əd-doulat əs-Səlcuqiyyə” (Zubdat ət-təvarix”, rus dilində)[9], Şihab əd-Din Muhəmməd ən-Nəsəvinin “Sultan Cəlaləlddin Mənkburnun həyatının təsviri (rus dilində)”[10] əsəri, Sədrəddin Əli Hüseynin “Ahbarüd-devletüs Selçukiyye” (Türkiyə türkcəsində) əsəri[11] bu qaynaqalar sırasındadır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi “İranın Kembric tarixi”nə əsasən XI-XIV əsrlərin Azərbaycan dövlətlərinin tarixini, onların daxili və xarici siyasətini, mədəni həyatını, o cümlədən bölgədə baş vermiş proses və hadisələri tədqiq etməkdir. Bu məqsədə nail olunması üçün qarşıya aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

---

[1] Xacə Nəsirəddin Tusi.Övsafül-əşraf (“Şərafət sahiblərinin vəsfi”). Fars dilindən tərcümə edən Rauf Şeyxzamanlı. Bakı: Nurlan, 2002;

[2] Xacə Nəsirəddin Tusi. Si fəsl (“Otuz fəsil”). Fars dilindən tərcümə edən Kamal Abdullayev. Bakı: Nurlan, 2002, 31 s.

[3] Xacə Nəsirəddin Tusi. Təzkirə: “Ağazü əncam”, “məbdə və məad” (Fars və ərəb dillərindən çevirən, ön sözün, çıxarış və şərhlərin müəllifi Əmirşah Əmirəhmədov). Bakı: Nurlan, 2002.

[4] İbn əl-Əsir. əl-Kamil fit tarix, VIII. Azərbaycan dilinə tərcüməsi S.M. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1959.

[5] Məhəmmədəli Tərbiyət. Danişməndani-Azərbaycan. Azərbaycanın görkəmli elm, sənət adamları. Bakı: Azərnəşr, 1987.

[6] Nizaməddin Şami. Zəfər-namə (Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar). Türk dilindən tərcümə edəni akademik Z.M.Bünyadov. Bakı: Elm, 1992; Nizameddin Şami. Zafername. Çevirmen: Necati Lugal. 2.Baskı. Ankara: Türk Tarih Kurumu, 1987.

[7]Zeynəddin Bin Həmdullah Qəzvini. Zeyl-e tarix-e qozide. “Seçilmiş tarix”ə əlavə. Fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.D.Kazımov və V.Z.Piriyevindir. Bakı: Elm, 1990.

[8] Reşidüddin Fazlullah. Camiut-Tevarih (İlhanlılar Kısmı. 1.Baskı. Farscadan çevirenler: Prof. Dr.İsmail Aka, Prof.Dr.Mehmet Ersan, Dr.Ahmad Hesamirour Khelejani. Ankara: Türk Tarih Kurumu, 2013.

[9] Садр ад-Дин Али ал-Хусейни. Ахбар ад-даулат ас-Сельджукиййа (Зубдат ат-таварих) Изд. текста, перев., прим. и приложения З.М.Буниятова. М.: Наука, 1980.

[10] Шихаб ад-Дин Мухаммад ан-Насави Мухаммад. Жизниописание султана Джалал ад-Дина Манкбурны. Пер. с араб. З.М.Буниятова. Баку: Елм, 1973.

[11] Sadreddin Ali əl-Hüseyni. Ahbarüd–devletüs Selçukiyye, Türkçe çev. N.Lügai, Ankara: Türk Tarih Kurumu, 1943, 150 s.

-“İranın Kembric tarixi” əsəri əsasında Azərbaycan tarixinin XI-XIV əsrlərlə bağlı olan məsələlərini təhlil etmək;

- “İran ” və “fars ” məsələlərinə münasibət bildirmək;

- Azərbaycanın XI-XIV əsrlər dövrü ilə bağlı olaraq təqdim olunan materialları Vətən tarixi elminin tələbləri baxımından obyektiv nəzərdən keçirmək;

-“İran tarixi” məsələsinə “avropamərkəzçilik” mövqeyindən yanaşma tərzinə münasibət bildirmək;

- “İran” ifadəsinə, məkanına münasibətdə bu xəttin məqsədli siyasətin nəticəsi olduğunu sübut etmək;

- XI-XIV əsrlərdə Azərbaycanın ərazilərinin “İranın Kembric tarixi” əsərində təsviri tərzini üzə çıxarmaq;

- “İranın Kembric tarixi” əsərində XI-XIV əsrlərin Azərbaycan dövlətlərinin yerini müəyyənləşdirmək;

-XI-XIV əsrlərdə yaşamış Azərbaycan mədəniyyəti xadimlərinin “İranın Kembric tarixi”ndə təsviri dərəcəsini aşkar etmək;

- “İranın Kembric tarixi” əsərində XI-XIV əsrlərin Azərbaycan dövlətlərinə münasibət məsələsinə Vətən tarixi elminin yanaşma tərzini nümayiş etdirmək.

**Dissertasiya işinin metodoloji əsası:** Dissertant qarşıya qoyduğu məqsədə nail olmaq üçün tipoloji yanaşma üsuluna üstünlük vermişdir. Tədqiqatin gedişində problemə dair müxtəlif dillərdə yazılmış mənbələr, mövcud elmi ədəbiyyat təhlil və müqayisə edilmiş, müvafiq elmi nəticələr irəli sürülmüşdür.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan milli tarixşünaslıq elmində ilk dəfə olaraq Azərbaycanın XI-XIV əsrlər tarixi “İranın Kembric tarixi” nə əsasən araşdırılmışdır. Tədqiqat prosesində əsərin V və VI cildləri nəzərdən keçirilmişdir. Bu cildlərdə Azərbaycan tarixi ilə bağlı olan çoxlu faktlar toplanmışdır. Tədqiqat işinin yeniliyini şərtləndirən əsas cəhətlər aşağıdakılardan ibarətdir:

- Təqdim olunan çoxcildlik əsasında “İran” istilahına aydınlıq gətirilmişdir;

- “İranın Kembric tarixi” əsərində “İran” və “fars ” məsələlərinə münasibətimiz öz əksini tapmışdır;

- İranın Kembric tarixi”ndə Azərbaycana münasibət məsələsi araşdırılmışdır;

- “İranın Kembric tarixi” əsərində XI-XIV əsrlərin Azərbaycan dövlətlərinin təsvirinə, problemin qoyuluşuna münasibət bildirilmişdir;

-"İranın Kembric tarixi" əsərində XI-XIV əsrlərin Azərbaycan dövlətlərinin daxili və xarici siyasətinin təqdimatı məsələlərinə münasibət göstərilmişdir;

-"İranın Kembric tarixi" əsərində Azərbaycan ərazilərində türklərin məskunlaşma tarixinə münasibəti aydınlaşdırılmış və buna elmi dəlillərlə açıqlamalar təqdim olunmuşdur;

- "İranın Kembric tarixi" müəlliflərinin XI-XIV əsrlərdə Cənubi Qafqazda baş vermiş proses və hadisələrə münasibəti təsvir edilmişdir;

-"İranın Kembric tarixi" əsərində XI-XIV əsrlərin Azərbaycan mədəniyyəti xadimlərinin, onaların mədəni, elmi fəaliyyətinin tədqiqinə münasibət nümayiş etdirilmişdir;

-"İranın Kembric tarixi"ndə Azərbaycanın XI-XIV əsrlər tarixinin təqdimatı digər mənbələrdə və elmi ədəbiyyatda verilmiş məlumatlarla müqayisə olunmuşdur;

-Dissertantın "İranın Kembric tarixi" əsərindən çıxardığı nəticələri elmi ictimaiyyətə təqdim edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Təqdim olunan dissertasiya işinin mühüm elmi-nəzəri və təcrübi əhəmiyyəti vardır. Dissertasiya işində təqdim olunan faktiki mənbələrdən, elmi ədəbiyyatdan, sənədlərdən, materiallardan əldə edilmiş nəticələrdən və ümumiləşdirmələrdən dərsliklərin və dərs vəsaitlərinin tərtib olunmasında, "Vətən tarixi", " Ümumi tarix", Beynəlxalq Münasibətlər tarixi " ixtisasları üzrə bakalavr və magistratura kurslarının tədrisində istifadə oluna bilər. Dissertasiyadakı materiallardan Azərbaycan milli dövlətçilik tarixinin tədrisi və təbliği istiqamətlərində də istifadə etmək mümkündür.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində yerinə yetirilmiş, şöbənin 02 dekabr 2015-ci il və 02 mart 2016-cı il tarixli iclaslarında müzakirə olunmuş və müdafiəyə təqdim edilmişdir. Dissertasiyanın əsas müddəaları müəllifin bir sıra elmi konfranslardakı məruzələrində, müxtəlif elmi məcmuələrdə nəşr olunmuş məqalələlərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyatın siyahısından ibarətdir. Müəllifin problemə dair nəşr olunmuş 14 elmi məqaləsi tədqiqat işinin əsas məzmununu əhatə edir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

"XI-XII əsrlər Azərbaycan dövlətləri "İranın Kembric tarixi"əsərində" adlanan birinci fəsil 2 yarımfəsilə bölünür. Birinci yarımfəsildə Azərbaycan Şəddadilər, Rəvvadilər və Şirvanşahlar dövlətlərinin siyasi tarixinin "İranın Kembric tarixi"ndə necə əks olunması məsələləri araşdırılır və dövrün mənbələrinə, bu dövrlə bağlı xarici və Vətən tarixşünaslığında nəşr olunan elmi ədəbiyyatlara istinad etməklə paralellər aparılır. .

XI-XIV əsrlər Azərbaycan türk dövlətlərinin yenidən tarix səhnəsinə çıxması ilə əlamətdardır. Həmin əsrlərdə Azərbaycan ərazilərində Şirvanşahlar (861-1538), Şəddadilər (971-1067), Rəvvadilər (981-1054), Eldənizlər-Atabəylər (1136-1225), Hülakular (1256-1357), Cəlairilər (1358-1410) dövlətləri mövcud olmuşdur. Azərbaycan əraziləri bu əsrlərdə Böyük Səlcuq imperiyasının tərkibinə qatılmış (1038-1157), Səlcuq sultanlarının vassal asılılığında olmuş, Əmir Teymurun (1336-1405) yaratdığı türk imperiyasının hakimiyyəti altına düşmüşdür. 1225-1231-ci illərdə Azərbaycan Şərqin böyük türk dövlətlərindən sayılan Xarəzmşahların varisi Cəlaləddinin hücumlarına məruz qalmış, Hülakuların (Elxanilərin) süqutu ərəfəsində isə Çobani əmirlərinin hakimiyyətinə tabe edilmişdir.

Bir çox ölkələrin tədqiqatçıları Azərbaycanın XI-XIV əsrlər dövrünün öyrənilməsinə müəyyən maraq göstərmişlər. Böyük Britaniya tarixçiləri bu sahədə aparıcı mövqe tuturlar. Böyük Britaniyada nəşr olunmuş 7 cildlik "The Cambridge history of Iran" ("İranın Kembric tarixi") əsərində bu dövrə geniş yer verilmişdir. Həmin çoxcildliyin V və VI cildlərində Səlcuqlardan Teymurilərə qədərki dövrdə Azərbaycanda baş vermiş hadisələr öz əksini tapmışdır. Böyük Britaniya tarixində bu dövrün tarixi ənənəvi olaraq "avropamərkəzçilik" konsepsiyası baxımından təqdim olunmuş, Azərbaycan tarixinə "İran tarixi" kimi yanaşılmışdır. Maraqlıdır ki, bu çoxcildlyin adı "İran tarixi" kimi təqdim olunur, lakin əsərdə daha çox türk tarixindən bəhs edilir, ənənəyə uyğun olaraq "Azərbaycan əhalisinin sonralar türkləşdiyi qeyd olunur, bu ərazilərdə lap qədim zamanlardan irandillilərin yaşadıqıqları" göstərilir. Lakin bu çoxcildliyin başlıca əhəmiyyəti ondadır ki, burada XI-XIV əsrlərdə baş vermiş siyasi proseslərin tarixi ardıcıllıqla, bütün incəlikləri ilə təsvir olunur. Bizim əsas məqsədimiz bu proseslərə "Kembric tarixi" konteksindən yanaşmaq, onlara Vətən tarixi mövqeyindən münasibət bildirməkdir. Çoxcildliyin V cildinin

ilk səhifəsində iranpərəstlik özünü aydın şəkildə büruzə verir. Həmin cilddə ilk məqalə Mançester Universitetinin professoru C.E.Bosvorta məxsusdur. Məqalə "İran dünyasının siyasi və sülalələr tarixi" adlanır. Bu məqalənin yarımbaşlığında "İranın türk işğalları" cümləsi diqqəti cəlb edir. Beləliklə, məqalədə "avropamərkəzçilik" özünü göstərir, "İranın XI əsrdə türklər tərəfindən işğalı" israr edilir. Bu isə İran ərazilərində XI əsrə qədər türk izi olmadığı qənaətini nəzərə çatdırır. "İran" ifadəsinin siyasi istilah kimi 1935-ci ildən sonra işləndiyini nəzərə alsaq, bu əsərlərdə İran və Azərbaycan ərazilərinin tarixinin təhrif olunduğuna əmin olarıq. Məqalənin giriş qismində göstərilir ki, "İran təxminən 1000 il ərzində qeyri-irandilli sülalələr-türklər, bəzən monqollar və kürdlər tərəfindən idarə olunmuşdur"[1]. Göründüyü kimi, "İranın Kembric tarixi"ndə Səlcuqlar nəinki işğalçı, eyni zamanda "aşağı səviyyəli bir xalq" kimi təqdim olunur. Lakin bu məqalədə həmin yanaşma tərzinin saxta olduğu zahirə çıxır. Çünki "aşağı səviyyəli bir xalq" İran ərazilərini 1000 ildən artıq idarə edə bilməzdi. Köhnə Sovet tarixçiləri müasir Avropa və İran tarixçiləri Səlcuqların, oğuz türklərinin "Azərbaycanı işğal etdiyini", həmin ərazidə yaşayan "İran" xalqlarını assimilyasiyaya məruz qoyduğunu" qeyd edirlər. Bu, tarixə ideoloji münasibət nümunəsidir, Yaxın və Orta Şərq tarixində türk varlığının inkarına yönəlmiş bir düşüncəyə xidmət edirdi. Mövcud olan yazılı qaynaqlar oğuz fəthlərindən əvvəl Cənubi Qafqazda, Şərqi Anadoluda, müasir İranın bütün şimali və mərkəzi ərazilərində xeyli türk əhalisinin yaşadığını təsdiq edir. Azərbaycan Böyük Səlcuq dövlətinin yaranması ərəfəsində və gedişində sonralar "İraq türkmanlari" adını alacaq oğuzların vətəni olmuşdur. Türkmanlar qərb istiqamətində hərəkət etdikcə Azərbaycan və müasir "Ermənistan" dərələrini, Anadolu yaylaqlarını öz sürüləri üçün çox münasib gördülər. XI əsrin ortalarında isə Azərbaycan oğuz kütlələrinin ən çox olduğu məkanların önündə idi. F.Sümər əsərində qeyd edir ki, "Anadolunu fəth etmiş və oradakı türklüyü uzun bir zaman ərzində bəsləyənlər Azərbaycandakı qələbəlik (xeyli) oğuz kütlələri olmuşdur" [2].

---

[1] The Cambridge history of İran. In eight volumes. Volume 5. The Saljuq and mongol periods. edited by J.A.Boyle. Cambridge at the university press, 1968.

[2] The Cambridge history of İran. In eight volumes. Volume 5. The Saljuq and mongol periods. edited by J.A.Boyle. Cambridge at the university press, 1968; Əkbər N.Nəcəf. Səlcuqlu dövlətləri və Atabəyləri tarixi. (Oğuzların ortaya çıxmasından – XIV əsrə qədər). Bakı, Qanun, 2010; Sümər F. Oğuzlar: Tarixləri, boy təşkilatları, dastanları, Türkiyə türkcəsindən tərcümə edəni Ramiz Əsgər. Bakı, Yazıçı, 1992.

Dissertasiya işində Azərbaycan Şəddadilər dövlətinin kimliyi məsləsinə xüsusi olaraq yer ayrılmışdır. Göstərilir ki, Səlcuqların gəlişindən öncə Azərbaycanın və bir sıra qonşu ölkələrin hərbi-siyasi tarixində fəal rol oynamış Şəddadilər sülaləsinin nümayəndələri X əsrin ortalarından XII əsrin sonunadək Cənubu Qafqazın Gəncə, Naxçıvan, Dvin və Ani əmirliklərində hakimiyyət başında olmuşlar. Həmin sülalənin banisi Məhəmməd ibn Şəddad ibn Qurtaq Salari hökmdarı Mərzban ibn Məhəmməd həbs olunduqdan sonra yaranmış vəziyyətdən istifadə edərək 951-ci ildə Dvin (Dəbil) şəhərini ələ keçirmişdi. Bu zaman Azərbaycanı idarə edən İbrahim Salari atasının vassalı Vayzur (Vayotsdzor) hakiminin qoşununu Məhəmməd ibn Şəddada qarşı göndərmişdi. Lakin Məhəmməd şəhər əhalisinin köməyi sayəsində Salari qoşunlarını darmadağın edə bilmişdi. Tezliklə İbrahimin başçılıq etdiyi qoşun Dvini ələ keçirmişdi. Məhəmməd Vaspurakana doğru geri çəkilmiş, yalnız ara bir qədər sakitləşəndən sonra dvinlilərin xahişi ilə yenidən geri qayıtmış, şəhərdə öz hakimiyyətini bərpa etmişdi[1]. Tarix ədəbiyyatında, o cümlədən "İranın Kembricin tarixi"ndə Şəddadilər sülaləsi "kürd mənşəli" kimi təqdim olunur. Lakin "İranın Kembric tarixi"ndə bu məsələdə yekdil fikir yoxdur. Orada göstərilir ki, Şəddadilərə daxil olan bir neçə tayfa kürd mənşəli olmuşdur. Əslində, bu, Sərq üçün səciyyəvi olan adi bir hadisədir. Çünki həmin dövrdə milli (etnik) məsələ əhəmiyyət kəsb etmirdi. Öndə əsasən dini məsələ gəlirdi, yəni, dini mənsubiyyət daha çox əhəmiyyət kəsb edirdi. Həmin dövrdə dövlətçilik məsələlərində etnik əlamətə xüsusi əhəmiyyət verilmirdi. Etnik mənşəyindən asılı olmayaraq Azərbaycan ərazilərində mövcud olmuş hər bir sülalənin hakimiyyəti Azərbaycan dövlətçiliyi faktıdır. Son dövrün araşdırmaları bu istiqamətdə yeniliklərə gətirib çıxarmışdır. Şəddadi nəslinin ulu babası Qurtaq Dvin və Ani bölgələrində məskunlaşmış türk boyundan olmuş, Salaroğullarının (Salarilərin) ordusunda xidmət etmişdir. Qədim erməni dilində (qrabar) yazılmış qaynaqlarda və Movses Xorenlinin əsərlərində "Baslan" (Ağrı) adlanan həmin bölgələrdə Bulqar, Vanak, Tork (türk) boylarının yaşadığından bəhs edilmişdir. X əsrin əvvəllərində yaşamış Qurtaq öz oğluna xəzərlərdə və bulqarlarda geniş yayılmış "Şad" adını qoymuşdu. Sülalənin daşıdığı "Şəddad" adı "Şad"ın ərəbcəyə uyğunlaşdırılmış şəklidir [2].

Rəvvadilər dövləti (981-1054) XI əsrin Azərbaycan dövlətləri arasında xüsusi yer tuturdu. Bu dövlət X əsrin sonlarından başlayaraq

---

[1] Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007.

[2]Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı: Bakı Universiteti, 2014.

təqribən bir əsr ərzində Azərbaycanın siyasi tarixində çox mühüm rol oynamışdır. Azərbaycan Rəvvadilər dövləti Abbasilər xilafətinin hökmranlığına qarşı mübarizə nəticəsində yaranmışdı. Bu dövlət uzun müddət ərzində müstəqilliyini qoruyub saxlaya bilmişdi. Bəzi tədqiqatçılar hesab edirlər ki, Rəvvadilər ölkənin, bölgənin siyasi həyatında Salariləri əvəz etmiş, və onların varisləri olmuşlar. Onlar bu yanlış mövqedən çıxış edərək Salari və Rəvvadi dövlətlərinin tarixini birləşdirirlər. Münəccimbaşının Osmanlı türkcəsinə ixtisarla tərcümə olunmuş "Səhayif əl-əxbar" əsərində göstərilir ki, Salarilər dövləti tarixinin sona çatması zamanı 1029-cu illə bağlıdır və bildirilir ki, bu dövlət məhz həmin ildə süqut etmişdir. Beləliklə, Münəccimbaşı Rəvvadi dövlətinin varlığını inkar edir və bildirirdi ki, Salarilər oğuzların yeni axınlarına, Səlcuqların gəlişinə qədər Azərbaycanda idarəçiliklə məşğul idilər. O da məlumdur ki, bir sıra Avropa şərqşünasları da Salari, Rəvvadi və Şəddadi sülalələrini birləşdirərək onları "Salarilər dövləti" kimi qələmə verirlər. "İranın Kembric tarixi"nin müəllifləri də belə yanlış mövqedən çıxış etmişlər[1]. Azərbaycan Şirvanşahlar dövləti XI-XIV əsrlərdə ölkənin və bölgənin Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Bu dövlət Azərbaycan tarixində ən "uzun ömürlü" dövlətdir. Dünya tarixində onun möhtəşəm izləri vardır. "İranın Kembric tarixi"ndə Şirvanşahlar dövlətinə də xüsusi yer ayrılımış, onun oynadığı rol öz əksini tapmışdır. Lakin bu əsərdə də Şirvanşahlar dövləti "Azərbaycan dövləti" kimi təqdim olunmur.

Bu gün də Azərbaycanda bir sıra tədqiqatçılar bu fikrin tərəfdarı kimi çıxış edirlər. Amma Şirvanşahlar əraziləri Azərbaycan coğrafiyasında hakimiyyətdə olmuş sülalələrdirlər. Ümumiyyətlə, Azərbaycan əraziləri coğrafi baxımdan bütöv olmuşdur. Sadəcə olaraq bu ərazilərdə ayrı-ayrı dövrlərdə hakimliklər, məlikliklər, dövlətlər mövcud olmuş və fəaliyyət göstərmişdir. Bəzi hallarda bu coğrafiya bir dövlətin əraziləri altında bütünləşmişdir. Bu baxımdan yuxarıda toxunduğumuz baxış reallıqları əks etdirmir. "İranın Kembric tarixi" əsərində Şirvanşahlarla bağlı məlumatlara, Rəvvadilər, Şəddadilər, Atabəylər, Hülakülər və Teymurilərlə bağlı məsələlərlə əlaqədar yer ayrılmışdır.

İkinci yarımfəsil "**Azərbaycan Atabəylər dövləti**" adlanır. İranın Kembric tarixi"nin V cildində öz əksini tapmış dövlətlərdən biri də Azər-

---

[1]The Cambridge history of İran. In eight volumes. Volume 5. The Saljuq and mongol periods. edited by J.A.Boyle. Cambridge at the university press, 1968; Шарифли М.Х. Феодальные государств Азербайджана второй половины IX-XI веков. Баку: Кавказ, 2012.

baycan Atabəyləri (Eldənizlər) dövlətidir. Bu dövlətə münasibət Səlcuqlarla bağlı olan məqalələrdə öz əksini tapmış və oxuculara "Azərbaycan Atabəylər" dövləti kimi deyil, "İraq Səlcuqlar dövləti" kimi təqdim olunmuşdur. Bu məqalələrdə Azərbaycan Atabəylərinə "İraq Səlcuqlarından vassal asılılığı" konteksində yanaşılır[1]. Qeyd edək ki, "İranın Kembric tarixi"nin V cildində bu qıpçaq-gürcü hücumları ilə bağlı olan məlumatlar "gürcülərin hücumları" kimi təqdim olunur, qıpçaqlardan isə bəhs olunmur. Müəlliflər "gürcülərin hücumları" barədə həm də qısa məlumatlarla kifayətlənmişlər.

"**Azərbaycan Hülakulər və Cəlayirlər dövründə**" adlanan II fəsil 4 yarımfəsilə bölünür.

**"Monqolların Azərbaycana ilk yürüşləri"** adlanan birinci yarımfəsildə monqolların Azərbaycana ilk yürüşləri zamanı baş verən ictimai və siyasi proseslərdən söhbət gedir. Monqol-tatar yürüşləri ərəfəsində Azərbaycanın xarici vəziyyəti çox ağır idi. Azərbaycan şərq tərəfdən iqtisadi cəhətdən bir-biri ilə sıx əlaqələri olmayan vilayətlərin birləşməsindən əmələ gələn Xarəzmşahlar dövləti ilə həmsərhəd idi. Xarəzmşahlar dövləti daxili cəhətdən möhkəm əsaslar əsasında qurulmamışdı. Ona görə də iqtisadi baxımdan möhkəm deyildi. Doğrudur, Xarəzmşahların ilk dövründə şəhərlərin inkişafında çiçəklənmə müşahidə olunurdu. Bu, xüsusilə sultan Təkişin və Əlaəddin Məhəmmədin dövründə nəzərə çarpırdı. Lakin təbəələrinin vəziyyətinə laqeyd yanaşan iri feodalların əksəriyyəti tərəfindən dəstəklənməyən Xarəzmşahlar monqollara qarşı mübarizə aparmaq qüdrətinə malik deyildilər. Monqol qoşunları bu dövlətin ərazilərinə çox asanlıqla daxil oldular, müqavimətə rast gəlmədən irəlilədilər[2]. "İranın Kembric tarixi"nin V cildində monqollarla bağlı olan xeyli məlumatlar vardır. İkinci yarımfəsil **"Azərbaycan Xarəzmşah Cəlaləddinin hakimiyyəti altında"** adlanır. Xarəzmşah Əla-əd-din Muhəmmədin oğlu sultan Cəlaləddin 1225-ci ildə Azərbaycana doğru istiqamət götürdü. Sultan Cəlaləddin haqqında dünya tarixçiləri xeyli əsər yazmışlar. Bu şəxsiyyətə müxtəlif istiqamətlərdən yanaşırlar.

Üçüncü yarımfəsil **"Azərbaycan Elxanilər və Cəlayirlərin hakimiyyəti dövründə"** adlanır. XI-XV əsrlər arasındakı dövrlərdə Azərbaycanın ictimai-siaysi həyatında Hülakular dövləti mühüm rol

---

[1]The Cambridge history... Yenə orada.

[2] Буниятов З.М. Государство Хорезмшахов-Ануштегинидов (1097-1231). М.: Наука, 1986; Али-заде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: Кавказ, 2012.

oynamışdır. Hülaku xanın gəlişinə qədər Azərbaycanda vəziyyət fərqli idi. Monqollar İrana və Azərbaycana gələrək Təbrizi dövlətin paytaxtı etdilər. Hülkular zamanında İran və Azərbaycan əraziləri siyasi mərkəz mövqeyinə çıxdı. Bu ərazilərə gələnlər arasında türklər sayca üstün olmuşlar. Buraya gəlmiş monqol-tatar tayfaları da tezliklə yerli şəraitə uyğun olan həyat tərzinə keçdilər. Azərbaycan ərazilərinin vahid dövlət hüdudlarında birləşdirilməsi, Hülakuların bu zəmində qaynayıb-qarışması bizə imkan verir ki, bu dövləti "Azərbaycan dövləti" adlandıraq. Həmin dövrdə Təbriz Böyük Monqol xanə və Misir Məmlük (türk) sultanlarının, Avropa dövlətləri, Bizans imperatoru və Roma Papası elçilərinin görüş yerinə çevrilmişdi[1]. Monqol xaqanlığının Ön Asiyanı, Cənubi Qafqazı və Anadolunu ələ keçirməsinə baxmayaraq, XIII əsrin ortalarında həmin vilayətlərdə bir sıra iri feodal malikanələri hələ də öz müstəqilliyini itirməmişdi. Ali monqol xaqanı Munke fəthləri davam etdirmək məqsədilə 1253-cü ildə Ön Asiyaya qoşun göndərdi. Munkenin qardaşı Hülaku xanın sərkərdəlik etdiyi bu yürüşdə əsas məqsəd İranın, İraq-i Ərəbin, Suriyanın və digər vilayətlərin müstəqil fəaliyyət göstərən hakimlərini itaətə cəlb etməkdən ibarət idi. Hülaku xan iri feodalların köməyi ilə bu vilayətlərdə bir çox yerli hakimləri özünə tabe etdi, iri şəhərləri alaraq çoxlu qənimət ələ keçirdi. 1256-cı ildə Şimali İranda İsmaililərin Ələmut Hökmranlığı süquta uğradı. 1257-ci ildə isə Azərbaycan əhalisi tabe edildi. 1258-ci ilin fevralında Hülaku Bağdad şəhərini ələ keçirdi və Abbasilər (750-1258) xilafətinə son qoyuldu. Zəbt edilmiş yeni ərazilər hesabına beşinci monqol ulusu-Hülakular (Elxanilər) dövləti yaradıldı. Həmin dövlət Azərbaycanda və geniş bölgədə təqribən bir əsr (1357-ci ilədək) mövcud olmuşdur[2]. Azərbaycanda və Yaxın Şərqdə təxminən, bir əsrə yaxın mövcud olmuş Hülkülər dövləti XIV əsrin I yarısında, 1336-1360-cı illərdə tənəzzülə başlayır, müxtəlif hissələrə parçalanır və nəticədə süqut edir. Sultan Əbu Səid qətlə yetirildikdən sonra (1335) Hülakular taxt-tacı uğrunda ara müharibələr yenidən qızışdı və getdikcə şiddətləndi. Hakimiyyət uğrunda mübarizə aparan qruplardan biri də Cəlairilər idi. Cəlairilər XIII əsrin ortalarında Hülaku xanın Yaxın Şərq ölkələrinə yürüşündə iştirak

[1]Reşidüddin Fazlullah. Camiut-Tevarih (İlhanlılar Kısmı. 1.Baskı. Farscadan çevirenler: Prof. Dr.İsmail Aka, Prof.Dr.Mehmet Ersan, Dr.Ahmad Hesamirour Khelejani. Ankara: Türk Tarih Kurumu, 2013.

[2]The Cambridge history of İran. In eight volumes. Volume 5. Yenə orada; Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Məsul redaktor: Oqtay Əfəndiyev. Bakı: Elm, 2007; Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Yenə orada; Али-заде А.А. Социально-экономическая и политическая история....Yenə orada.

etmişdilər. Bu yürüş nəticəsində də Cənubi Qafqaza gəlmişdilər. Onların bəziləri Hülakular dövlətinin hərbi və inzibati idarələrində xidmət etmişdilər. Cəlairilərə "İranın Kembric tarixində" teymurilərlə bağlı münasibətlərdə toxunulur. Bu elə dövr idi ki, Orta Asiyada Teymur imperiyasının yaranması və qonşu ölkələri öz ərazilərinə birləşdirmək istəyi, eyni zamanda Qızıl Orda xanı Toxtamışın Azərbaycanı ələ keçirmək cəhdləri ölkənin vəziyyətini daha da ağırlaşdırmışdı[1]. "İranın Kembric tarixi"nin müəllifləri Cəlairlilər sülaləsinin hakimiyyətdən məhrum olunmasının səbəbləri sırasında "Sultan Əhmədin yarıtmaz siyasətini" göstərirlər. Əsərdə göstərilir ki, "Cəlairlər İran torpaqlarında Əmir Teymurun istilasından kənarda qalmış yeganə mühüm qüvvə idi. Bu "azadlıq" bir neçə il çəkdi. Sultan Əhmədin canişinləri əhalini incitmiş, rəqibləri olan Qarqoyunlularla əhd-peyman bağlamış, bu iqtidar isə davamsız olmuşdu. Sultan Əhmədin hakimiyyəti dövrü ölkənin, bölgənin mədəni həyatına da uğursuzluq gətirdi. Onun dövründə Təbriz və Bağdad şəhərləri bölgənin iki əsas mədəni mərkəzi olmuş, bu şəhərlər rəssamlıq məktəbləri inkişaf etmişdi. Əmir Teymur Bağdada daxil olarkən bu məktəb tam məhv edilməmişdi və fateh ən yaxşı rəssamların bir dəstəsini Orta (Mərkzəi) Asiyaya köçürdü"[2].

**"Azərbaycan Əmir Teymurun və Toxtamış xanın yürüşləri dövründə"adlanan dördüncü** yarımfəslində göstərilir ki, XIV əsrin 80-90-ci illərində Azərbaycan özünün növbəti tarixi mərhələsini yaşadı. Bu dövrlər türk dünyasının iki nəhənginin – Toxtamışın xanın və Əmir Teymurun Azərbaycana yürüşləri ilə müşayiət olunur. Onların hər ikisi bütün Şərq dünyasını öz hakimiyyətləri altında birləşdirməyə çalışırdılar. Ən böyük mübarizə bu iki şəxsiyyət arasında getdi. XIV əsrin 70-80-ci illərində Azərbycandakı siaysi sabitsizlik Əmir Teymurun və Toxtamışın hücümlarına şərait yaratdı. Bu zamandan başlayaraq Azərbaycan əraziləri Toxtamış xan və Əmir Teymur ziddiyyətlərinin də tapdağına çevildi. Onların yürüşü istər Avropa, istərsə də SSRİ tarixşünaslığında işğalçı yürüş kimi təqdim edilmişdir. Əslində, onlar və onlara qədər bütün türk

[1]The Cambridge history of İran. In eight volumes. Volume 6. The Timurid and Safavid periods. edited by Peter Jackson. Cambridge university press, 1986; Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Yenə orada; Azərbaycan tarixi. Yeddi cilddə. III cild. Yenə orada; Zeynəddin Bin Həmdullah Qəzvini. Zeyl-e tarix-e qozide. "Seçilmiş tarix"ə əlavə. Fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.D.Kazımov və V.Z.Piriyevindir. Bakı: Elm, 1990.
[2]The Cambridge history of İran. In eight volumes. Volume 6. Yenə orada.

hökmdarları Şərq ərazilərini öz hakimiyyətləri altında birləşdirib özlərindən əvvəlki imperiyaları təkrarlamaq istəyirdilər.

**“Azərbaycan mədəniyyətinin təkamülü”** adlanan üçüncü fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **“XI-XII əsrlərdə mədəniyyət”** adlanır. Mədəniyyət tarixi üzrə mütəxəssislərin bir qismi X-XII əsrləri ərəb-müsəlman mədəniyyətinin, onun tərkib hissəsi olan ədəbiyyatının tarixində ən məhsuldar dövrlərdən biri kimi qiymətləndirir. Bu əsərlərdə Azərbaycan ziyalıları mədəni dəyərlərin yaradıcıları sırasında öndə olmuşdurlar. Ədəbiyyat sahəsində böyük uğurlar qazanmış Azərbaycan ədibləri ərəb və fars dillərində yazdıqları elmi,bədii, fəlsəfi məzmunlu əsərləri ilə dövrün “müsəlman mədəniyyəti”ni zirvələrə qaldırmışlar. Ərəb xilafətinin parçalanması nəticəsində müsəlman dünyasında irançılığa meyil, “İran” tarixinə, ədəbiyyatına, fars dilinə aludəçilik güclənmişdi. Türkcə dövlət dili olduqdan sonra da farsca sıradan çıxmamışdır. Türk ziyalısı üçün fars dili hər dövrdə yabançı bir dildən başqa türk mədəniyyətini, ədəbiyyatını, tarixini araşdırmaq üçün qaynaq dili olmuşdur. Təbiidir ki, farscaya türk dilinin çox təsiri olmuş, yüzlərcə türk sözü farsdilinə daxil olmuşdur. İranda “fars dili” adına yazılanların əksəriyyəti türklər tərəfindən yazılmışdır. Farscanın ümumi dil olmasını, ərəb əlifbası ilə yazılıb yayılmasını IX-X əsrlərdə Mavəraünnəhr bölgəsində ərəblər tətbiq etmişlər. Fars dili İranda deyil, Mavəraünnəhrdə işlənmişdir. Fars dilinin yazılışını ərəblər, yayılmasını isə türklər etmişlər. Ərəb istilası dövründə tamamilə sıradan çıxarılmaqda, hətta aradan qaldırılmaqda olan fars dili və mədəniyyəti Səlcuq sultanları və onlardan sonrakı türk dövlətləri tərəfindən canlandırılmışdır. Fars dili türklərin sayəsində inkişaf edərək yüksək ədəbi dil səviyyəsinə çatdırılmışdır. Türk şairləri, ədibləri fars dilində əsərlər yazaraq farsdilli ədəbiyyatın yüksəlişinə böyük dəstək olmuşlar. XI-XII əsrlərdə Qafqazda və İranda “saray ədəbiyyatı” adlandırılan bir ədəbiyyat doğuldu. Bu saray şairləri Şirvanda Şirvanşahların, Təbrizdə isə Eldənizlərin sarayı ətrafında toplandılar. Şirvanşahlar sarayında toplanmış şairlərin başında Nizaməddin Əbülüla Gəncəvi (1096-1159), Ömər Gənci (1085?-1155), Əfzələddin Xaqani Şirvani (1126-1199), Eynəlqüzzat Miyanəci (1099-1131), Fələki Şirvani (öl. 1159/69), Mücirəddin Beyləqani (öl. 1190), Mütərrizi Gəncəvi (öl. 1190) gəlməkdədir[1]. Səlcuqlar dövründə alimlərə və ziyalılara xüsusi

[1]The Cambridge history of İran. In eight volumes. Volume 5. Yenə orada; Azərbaycan tarixi. Yeddi cilddə. II cild. Yenə orada; Zehtabi Muhammed Taki. İslama Gederki İran Türklerinin Dili ve Edebiyyatı. Təbriz: Ehter Neşriyyatı, 1380/2001; Attar (Haşimzade)

hörmət olunur və onlara yüksək dəyər verilirdi. Bu dövrdə müxtəlif elmlər inkişaf etmiş, xeyli kitab yazılmışdır. Əlbəttə, bütün elmlərə eyni səviyyədə diqqət yetirilmirdi. Hətta bəzi elm sahələri "lazımsız" sayılırdı. Məsələn, fəsəfə və məntiqə bu dövrdə maraq göstərilməsə də, ədəbiyyata və fiqhə xüsusi diqqət yetirilirdi. Alimlər bəzi elm sahələrinə dair tədqiqatlar aparırdılar[1].

İknci yarımfəsil **"XIII-XIV əsrlərdə mədəniyyət"** adlanır. XIII-XIV əsrlərdə Azərbaycanda elmin bütün sahələrində inkişaf baş verir. Astronomiya, riyaziyyat, tibb, tarix, ədəbiyyat, dil, musiqi, eləcə də, memarlıq və incəsənətdə çalışan Azərbaycan alimləri öz əsərləri ilə Şərqin bir çox ölkələrində məhşurlaşırlar. Bu dövrdə astronomiya (nücum), riyaziyyat, tibb, fəlsəfə, tarix, coğrafiya və s. elmlər üzrə qiymətli kəşflər edildi, əsərlər yazıldı. 1259 cu ildə Məhəmməd Nəsirəddin Tusinin rəhbərliyi ilə açılmış Marağa rəsədxanası, XIV əsrin əvvəllərində Şam-Qazanda tikilmiş rəsədxana Şərqdə nücum elminin mərkəzlərinə çevrildi. Azərbaycanın məşhur riyaziyyatçısı, "Risalət ül-hesab" əsərinin müəllifi Übeyd Təbrizi və görkəmli filosof Sədəddin Mahmud Şəbüstəri (1252-1320) çalışdıqları elm sahələrində tanındılar[2]. XIII-XIV əsrlərdə Azərbaycanda peripatek fəlsəfəyə dair problemlər Siracəddin Urməvinin, Əfzələddin Xunəcinin, Nəsirəddin Tusinin, Səfiəddin Urməvinin əsərlərində öz əksini tapmışdır. Onların bizə əmanət qoyduğu əsərlərdə fəlsəfi problemlərdən əlavə, nücum, təbabət, riyaziyyat, məntiq və hüquq məsələləri də öz əksini tapır. XIII-XIV əsrlərdə Azərbaycanda fiqh, təsəvvüf sahəsində görkəmli şəxsiyyətlər ortaya çıxdı. Bu elə bir zaman idi ki, təsəvvüf özünün çiçəklənmə dövrünü yaşayırdı. XIII-XIV əsrlərdə Azərbaycanda incəsənətin bütün sahələrində olduğu kimi, dekorativ-tətbiqi sənətlər və təsviri sənətlər sahəsində də böyük nailiyyətlər əldə edilmişdir. Bu dövrdə qədim tarixə malik dekorativ-tətbiqi sənətimizin dulusçuluq, ağac və şüşə məmulatı, daş, ağac və kəc üzərində yonma, bədii metal, bədii parça və tikmələr, zərgərlik və xüsusilə xalçaçılıq kimi növləri daha çox inkişaf etmişdir. Həmin dövrdə Azərbaycanda dulusçuluq, misgərlik və s. sənət sahələri daha da inkişaf edərək geniş sənaye istehsalına çevrilir və öz

---

Aygün. İranın Etnik Yapısı (Yakın Dönem ve Günümüzde). Ankara: Divan Yayıncılık, 2006; Kafkasyalı Ali. İran Coğrafyasında Türkler. İstanbul: Cağaloğlu, 2011.

[1]Babazadə Nəzrin. Səlcuqlar dövründə İranda elm və maarifin inkişafı (farsdilli mənbələrə görə). http://mct.gov.az/service/lang/az/page/104/nid/47/. Strategiya.az.

[2]The Cambridge history of İran. In eight volumes. Volume 5. Yenə orada; Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Yenə orada; Piriyev Vaqif. Məhəmməd ibn Hinduşah Naxçıvani. Bakı: Elm, 2001.

məhsullarını xarici bazara çıxardaraq böyük şöhrət qazanırdılar. XIII-XIV yüzilliklərdə memarlıq da özünün inkişaf mərhələsini yaşayırdı[1].

XIII-XIV əsrlərdə Azərbaycanın müxtəlif ərazilərində məscidlər, mədrəsələr, karvansaralar, türbələr tikilmişdir. Bunların sırasında Təbriz, Bakı, Dərbənd, Marağa, Raziyə şəhərlərində tikilmiş Came məscidləri, Bakı və ümummiyyətlə, Abşeronda tikilmiş Xıdır məscidi (1301), Molla Əhməd məscidi (1345), Çin məscidi, Gilək məscidi, Xanlar qəsəbəsindəki məscid, Sultaniyyə, Marağa, Bərdə, Salmas, Veysəlli, Bakı kəndlərində tikilmiş türbələr, Mərənd və Sərcamda tikilmiş karvansaraları göstərmək olar. XIV əsrin Azərbaycanın ən məşhur memarlıq abidələrindən olan Əlişah məscidi 1310-20-ci illərdə Təbrizdə Məhəmməd Ulcaytunun vəziri Tacəddin Əlişah tərəfindən tikilmişdir. Bəzi qaynaqlarda Əlişah Təbrizinin həm də məscidin memarı olması göstərilir. Qala XVII əsrdə bərpa edildikdən sonra ətrafında Təbriz qarnizonu üçün binalar tikilmişdir. Vaxtilə Azərbaycanın və Yaxın Şərqin əzəmətli memarlıq abidələrindən olmuş bu məscid qismən də olsa dövrümüzə qədər mühafizə olunmuşdur[2].

XI-XIV yüzilliklərin Azərbaycan mədəni həyatının tədqiqi bizə imkan verir deyək ki, bu dövr mədəniyyətində dövrün ictimai-iqtisadi, siyasi, dini-ideoloji hadisələri fəal əks olunmuşdur. Düzdü, arada Azərbaycan mədəniyyəti güclü basqıya məruz qaldı və bu basqının nəticəsində ciddi itkilər baş verdi. Bu basqı monqol yürüşləri zamanı oldu. Lakin monqol yürüşlərindən sonra baş verən sabitlik Azərbaycan mədəniyyətinin də yenidən dirçəlməsinə imkan yaratdı. Bu mənada Azərbaycanda qurulan Azərbaycan Hülakular dövlətinin rolu xüsusi ilə vurğulanmalıdır. O dövrün mədəniyyət faktlarında (elmi, bədii, fəlsəfi əsərlərdə, memarlıq abidələrində, dekorativ-tətbiqi sənət nümunələrində və s.) Azərbaycan xalqının qədim adət-ənənələri, qədim dövrün mənəvi dəyərləri ilə yanaşı, insanların kamilləşməsi məsələləri, onun əzəli və əbədi arzuları da əks olunmuşdur. Həmin dövrün Azərbaycan elm və mədəniyyət xadimlərinin (Nəsirəddin Tusi, Məhəmməd Naxçıvani, İmadəddin Nəsimi, Fəzlullah Nəimi, Səfiəddin Urməvi, Əbdülqadir Marağİ və bir çox başqalarının) yaratdıqları əsərlər təkcə Yaxın və Orta Şərq elminin, fəlsəfəsinin, ədəbiyyatının, musiqi nəzəriyyəsinin deyil, dünya elm və mədəni sahələrinin bənzərsiz incilərindəndirlər. O dövrlərdə ölkənin

[1]The Cambridge history of İran. In eight volumes. Volume 6. Yenə orada.

[2]The Cambridge history of İran. In eight volumes. Volume 5. Yenə orada; Ciddi H. Təbriz Ərk qalası // "Elm və həyat", 1982, №3, s.33-34; Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə.Yenə orada.

memarlıq, şəhərsalma sahələrində ciddi irəliləyişlər baş verdi, ölkənin müxtəlif ərazilərində əzəmətli və yaraşıqlı memarlıq obyektləri salındı. Həmin dövrün dərindən araşdırılması bir daha sübut edir ki, Azərbaycan Yaxın və Orta Şərqin ən böyük mədəni mərkəzlərindən biri olmuşdur.

**Nəticə.** Azərbaycan xalqının orta çağlar dövrünün Qərb tarix elmi əsasında tədqiqi həm Vətən tarix elminin aktual vəzifəsi, həm də zəruri nəticələr əldə olunması baxımından müstəsna əhəmiyyət kəsb etdi. Asiyanı Avropa ilə birləşdirən Azərbaycana, burada mövcud olmuş dövlətlərə obyektiv münasibətin formalaşdırılması müasir gerçəklikləri baxımından da aktualdır. Orta əsrlərdə quru yolla Hindistana çıxışın ən sərfəli marşurutu Azərbaycandan keçirdi. Buna görə də Azərbaycan Qərb dövlətləri üçün böyük əhəmiyyət kəsb edirdi. Qərbin iri dövlətləri məhz orta əsrlərdən etibarən Azərbaycan dövlətləri ilə siyasi, ticariət əlaqələri yaratmağa çalışmışlar. Həmin dövrdə Azərbaycan dövlətlərinin paytaxtı olmuş Təbriz şəhəri dünyanın ən iri ticarət, mədəniyyət mərkəzi hesab edilirdi.

XI-XIV əsrlərdə Azərbaycanda Şirvanşahlar (861-1538), Şəddadilər (971-1067), Rəvvadilər (981-1054), Atabəylər (1136-1225), Hülakular (1256-1357), Cəlairilər (1340-1410) dövlətləri mövcud olmuşdur. Həmin dövrdə Azərbaycan Böyük Səlcuq imperiyasının (1038-1157), Əmir Teymurun (1386-1405) hakimiyyəti "altına düşmüş" əslində isə bu türk dövlətlərinin mərkəzi olmuşdur. 1225-1231-ci illərdə Azərbaycanda ərazilərində Xarəzmşah Cəlaləddinin hakimiyyəti mövcud olmuş, 1338-ci ildən 1357 ilədək ölkədə Çobani əmirləri ağalıq etmişlər.

Bu dövrün ən mühüm hadisələrindən biri Səlcuq imperiyasının yaranması idi. Çünki Səlcuqlardan sonra Azərbaycanda mövcud olmuş dövlətlər bu imperiyanın varisləri kimi çıxış etmişlər. Mütəxəssislərin fikrincə, həm türk, həm Yaxın və Orta Şərq həm də dünya tarixində çox mühüm mərhələ təşkil etmiş Böyük Səlcuq imperiyasının yaranması məhz oğuzların islam dininə keçmələri ilə bağlı idi. Səlcuqlar dövründə kütləvi şəkildə Yaxın və Orta Şərqə, o cümlədən Azərbaycana və Anadoluya köçmüş müsəlman oğuzlar özlərini hələ "türkman" adlandırmır, əski "oğuz" xoronimini işlətməyə üstünlük verirdilər. Yalnız XIII əsrin əvvəllərindən etibarən "türkman" adı onların arasında yayılmağa başlandı.

XI-XIV əsrlərdə Azərbaycanda türk etnik şüurunun yüksəlişi ilə əlamətdardır. Bu dövrdə türk etnik şüurunun yüksəlişinin, xüsusilə cəmiyyətin türk etnik dəyərlərinə artan meyilinin ən bariz göstəricilərindən biri bəy və sultan ailələrində türk tarixi və ənənəsi ilə bağlı olan şəxs adlarına maraq idi. Məhz marağın nəticəsi idi ki, XIV-XV yüzilliklərdə Anadoluda və Azərbaycanda, xüsusilə hakim xanədanlarda türk adlarının

daha çox qoyulduğunun şahidi oluruq. XI əsrdən XIV əsrədək elmdə, mədəniyyətdə özünün inkişaf dövrünü keçirmiş türk dili artıq XV əsrin əvvəllərində görülməmiş dərəcədə yüksəlmişdi. Təbiidir ki, bu, ilk növbədə Balkanl yarmadasından Çin sərhədlərinədək olan geniş ərazidə türk siyasi üstünlüyünün bərqərar olması ilə bağlı idi.

"İranın Kembric tarixi" çoxcildliyinin V və VI cildlərində bütün bu məsələlər birtərəfli təqdim edilmiş və türk dilinin, mədəniyyətinin inkişafına lazımi səviyyədə toxunulmamış, yalnız fars dilində yazmış şairlərə, digər elm xadimlərinin yaradıcılığına diqqət yetirilmiş, onların yaradıcılığı isə "fars mədəniyyətinin inkişafı" kontekstində təqdim olunmuşdur. Azərbaycan ərazisində mövcud olmuş dövlətlərə (məsələn, Atabəylərə) isə Səlcuqlarla bağlı olan hissələrdə yer verilmiş, Hülakular (Elxanilər) dövlətinə monqollarla bağlı olan məqalədə toxunulmuş, Azərbaycan subyekt kimi deyil, bu dövrün obyekti kimi təqdim edilmişdir.

Əsərdə, Azərbaycan mədəniyyəti xadimləri də "fars mədəniyyətinin nümayəndələri" kimi təqdim olunur. Hürufiliklə bağlı olaraq İmadəddin Nəsimiyə diqqət yetirilmiş, lakin hürufilərin Azərbaycanla bağlı olmuş planlarına toxunulmamışdır. Həmin dövrün türk dilində yazmış şairlərinə və filosoflarına da fikir verilməmişdir. Bununla yanaşı həmin çoxcildlikdə Azərbaycan tarixi ilə bağlı olan çoxlu maraqlı faktlar vardır ki, biz də onların üzərində geniş dayandıq və aşağıdakı elmi nəticələrə gəldik:

1) "İranın Kembric tarixi" əsəri əsasında XI-XIV əsrlərin Azərbaycan tarixi məsələlərini nəzərdən keçirərək "İran kimliyi" və "fars kimliyi" məsələlərinə aydınlıq gətirdik;

2) Bu əsərdə XI-XIV əsrlərdə Azərbaycan xalqının həyatı ilə bağlı olaraq təqdim edilmiş materiallara tənqidi yanaşmaqla "avropamərkəzçilik" konsepsiyası əsasında təqdim olunan "İran tarixi" məsələlərinə aydınlıq gətirdik, bu baxışın İran coğrafiyasına münasibətdə məqsədli siyasətin təzahürü olduğunu aşkara çıxardıq;

3) "İranın Kembric tarixi" ndə XI-XIV əsrlərdə Azərbaycanın ərazilərinin təsvir olunması tərzini üzə çıxarmaqla həmin dövürdə Azərbaycan dövlətlərinin yerini və rolunu müəyyənləşdirməyə nail olduq;

4)XI-XIV əsrlərin Azərbaycan dövlətlərinin "İranın Kembric tarixi" əsrində təsvirinə və problemin qoyuluşuna, daxili və xarici siyasət məsələlərinə yanaşma üsuluna tənqidi münasibət göstərməyə, ingilis müəlliflərinin Cənubi Qafqazda baş vermiş tarixi proseslərə baxışına yeni münasibət nümayiş etdirməyə çalışdıq;

5) Tarixi faktlardan çıxış etməklə “İranın Kembric tarixi”ndə Azərbaycanda türklərin məskunlaşma tarixinə yanaşma tərzinə tənqidi münasibətimizi ortaya qoyduq;

6) “İranın Kembric tarixi” əsərində XI-XIV əsrlərdə Azərbaycan mədəniyyəti nümayəndələrinin və onların elmi fəaliyyətlərinin araşdırılması tərzinə, nəticələrinə tənqidi münasibət bildirdik, ingilis müəlliflərinin mülahizələrini Vətən tarixi elmində, digər ölkələrin tarixşünaslığında mövcud olan elmi ədəbiyyatla müqayisə etməyə çalışdıq.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışır:**

1. S.F.Abdullayeva “Xarəzmşah Cəlalaəddinin Azərbaycan səfəri və nəticələri (“İranın Kembric tarixi”əsasında)” BDU-Tarix və onun problemləri, № 2,Bakı 2015, s.320-324.

2.S.F.Abdullayeva “Azərbaycan Şəddadilər Dövləti “İranın Kembic Tarixi” əsərində”Azərbaycanşünaslığın aktual problemləri, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92 ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları, Bakı 2015-11-17, s.26-28.

3.S.F.Abdullayeva “Şəddadilər sülaləsinin hakimiyyət dövrünün bəzi məsələləri(“İranın Kembric Tarixi” əsasında)” Azərbaycan Respubliksaının Təhsil Nazirliyi, Gəncə Dövlət Universiteti, Qafqaz Tarixinin Aktual Məsələləri, Beynəlxalq konfrans, Gəncə 2015, s.28-31.

4.S.F.Abdullayeva “Hülakilər dövlətinin parçalanması və süqutu “ İranın Kembric Tarixi” əsasında”BDU-Tarix və onun problemləri, № 1, Bakı 2013, s.259-265.

5.S.F.Abdullayeva “Azərbaycan xalqının tarixinə köhnəlmiş baxış(“İranın Kembric Tarixi” əsasında)” ADPU, Pedoqojı Universitet Xəbərləri,Bakı № 1-2015, s.207-209

6.S.F.Abdullayeva “Освещение истории Азербайджана и государства сельджуков в «Кембриджской истории Ирана»”Грани, № -5 (121) Травень 2015, с.138-143.

7.S.F.Abdullayeva “Некоторые вопросы эволюционного процесса Азербайджанской культуры в период сельджуков( на основе « Истории Кембриджского Ирана)” XIII Международная научно-практическая конференция: «Научные перспективы XXI века. Достижения и перспективы нового столетия» Россия,г. Новосибирск, 10-11.07.2015 г, с. 47-49.

8.S.F.Abdullayeva “Некоторые события, касающиеся истории государства Атабеков( на основе многотомной книги «Кембриджской истории Ирана)” Proceedings of the II nd İnternational Scientific and Practical Conference “Topical Problrms of Modern Science and Possible Solutions September 24-25,Dubai,U.A.E, c.117-120.

9.S.F.Abdullayeva “Azərbaycan memarlığı XIII-XIV əsrlərdə( “İranın Kembric tarixi” əsasında)”, BSU, “ Ulu Öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər” Beynəlxalq Elmi Konfransın Materialları, 3-5 may 2016, s.36-38.

10.S.F.Abdullayeva “Əmir Teymurun və Toxtamış xanın Azərbaycana yürüşü və nəticələri(“İranın Kembric tarixi” əsasında)” Naxçıvan Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, “Elmi əsərlər” № 6 (71) 2015, s. 62- 68.

11.S.F.Abdullayeva “Azərbaycanda XI- XII əsrlərdə memarlıq və şəhərsalama mədəniyyəti(“İranın Kembric Tarixi” əsasında)”- AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu, Elmi əsərlər, 41-43 cü cild, Bakı 2012, s.48-59.

12.S.F.Abdullyeva “Azərbaycanda XII əsrdə ədəbi məktəbin yaranması (“İranın Kembric Tarixi” əsasında)” - AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu, Elmi əsərlər, 60 cı cild, Bakı 2016, s.22-33

13. S.F.Abdullayeva “XII yüzillikdə Azərbaycanda ədəbi mühit (“İranın Kembric Tarixi” əsasında)”- Qloballaşma və Regional İnteqra-siya- Respublika elmi konfransının materialları, Mingəçevir -2016, s.418-420.

14. S.F.Abdullayeva “XIII-XIV əsrlərdə Azərbaycanda elm (“İranın Kembric Tarixi” əsasında)” –Konfrans materialları, Gənc alimlərin I beynəlxalq elmi konfransı, 17-18 oktyabr 2016, Gəncə, s.13-16.

**Sevda Fizuli gizi Abdullayeva**

## AZERBAIJAN XI-XIV CENTURIES (ON THE BASIS OF "CAMBRIDGE HISTORY OF IRAN'S")

### SUMMARY

One of the important themes of national historiography is the study of the history of Azerbaijan XI-XIV centuries on the basis of Western historiography.This is considered to be the period of development of Azerbaijan statehood and culture.

There is an extensive information about this period in Western historiography. However, the information, presented in it is considered from the perspective of «Eurocentrism», and it has serious distortion connected with the history of Azerbaijan.

History of Azerbaijan XI-XIV centuries in the Cambridge History of Iran has been presented as history of Iran. Azerbaijan culture is introduced to the scientific community under the rule of the Iranian culture as a part of Persian culture. The thesis is aimed to study these problems.

The thesis consist of an introduction, three chapters, paragraphs, conclusions, a list of referees, application and comments.In the introduction actuality of the theme, its goals and objectives, scientific value, originality, methods and sources of the research are reflected.

In the first chapter, entitled " The Azerbaijan state XI-XII centuries in the Cambridge History of Iran" the issue of lighting in the book the political history of Azerbaijan states like Shaddadids, Ravvadids, Shirvanshahs and Atabays be studied and compared with the position of the national historiography.

The second chapter "Azerbaijan during Hulaguids and Jalairids" was considered the way this period was studied in the Cambridge History of Iran and the important of there state for our history had been shown.

In the third chapter called "Progress of the Azerbaijan culture " scientific date of our culture in Cambridge History of Iran are studied and brought the attention from the point of view of national historiography interest.

Scientific results of the author have found its reflection in the conclusion in the thesis.

**Севда Физули гызы Абдуллаева**

**АЗЕРБАЙДЖАН В XI-XIV ВЕКАХ
(НА ОСНОВЕ «КЕМБРИДЖСКОЙ ИСТОРИИ ИРАНА»)**

**Р Е З Ю М Е**

Изучение истории азербайджанских государств XI-XIV вв. по материалам исторической науки стран Запада является одной из важных задач отечественной историографии. В исторической науке стран Запада имеются богатые материалы, связанные с этим этапом. Однако эти материалы были исследованы западными учеными с позиций «евроцентризма» и серьезной фальсификации подвергнуты многие факты истории азербайджанского народа. В труде «Кембриджская история Ирана» история Азербайджана XI-XIV вв. представлена научной общественности как «История Ирана», азербайджанская культура рассмотрена как «составная часть Иранской (Персидской) культуры. Представленная диссертационная работа посвящена исследованию именно этих вопросов.

Диссертация состоит из введения, трех глав, восьми параграфов, заключения, списка использованных источников и научный литературы, приложений и замечаний.

Во введении обоснована актуальность темы,ее цель и задачи научно-теоретическое, практическое значение, хронологические рамки, научная новизна, степень изученности, методы и источники исследования.

В первой главе под названием «Государства Азербайджана XI-XII вв. в «Кембриджской истории Ирана» исследован способ освещения политической истории азербайджанских государств Шеддадидов, Раввадидов, Ширваншахов и Атабеков-Эльденизидов в «Кембриджской истории Ирана» и показан подход отечественных историков к проблемам политической истории Азербайджана XI-XII вв.

Во второй главе –«Азербайджан в период правления Хулагуидов и Джелаиридов» критически рассмотрен метод исследования история этих государств в «Кембриджской истории Ирана», определены место и роль государств Хулагуидов и Джелаиридов в истории азербайджанской государственности.

В третьей главе под названием «Эволюция азербайджанской культуры» критически проанализированы сведения «Кембриджской истории Ирана» о культуре Азербайджана XI-XIV вв., представлен подход отечественных историков к данной проблеме.

В заключении диссертации подведен итог проведенного исследования, сформулированы общие, основные выводы, вытекающие из данной работы.

AMEA TİKM-də yığılıb-səhifələnmişdir

Kağız formatı 60x84 1/16,
Tirajı 100 nüsxə

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**СЕВДА ФИЗУЛИ кызы АБДУЛЛАЕВА**

# АЗЕРБАЙДЖАН В XI-XIV ВЕКАХ (НА ОСНОВЕ « КЕМБРИДЖСКОЙ ИСТОРИИ ИРАНА»)

Специальность 5503.02 – Отечественная история

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2017**